# Qərəzli qərarlar Azərbaycanı haqq yolundan çəkindirə bilməz

**Avropa Parlamentinin Azərbaycana qarşı növbəti riyakarlığı gözlənilən idi. Görünən budur ki, erməni lobbisinin təsiri altında olan Avropa Parlamenti (AP) Avropa İttifaqının icra orqanlarından fərqli olaraq ölkəmizə qarşı sifarişləri yerinə yetirməkdə daha çox həvəslidir. Təbii ki, bu da AP-nin erməni lobbisinin təsiri altında olması, eyni zamanda Hayastanın lobbiçilik siyasətini tamamilə öz üzərinə götürmüş Fransanın Avropa Parlamentində əsas söz sahiblərindən biri olması ilə bağlıdır.**

AP-də azlıqlarla bağlı digər qruplar da var ki, onlar da Azərbaycanı öz maraqlarına görə cəzalandırmaq istəyirlər. Azərbaycana münasibətdə ayrı-ayrı lobbi qruplarının maraqları fərqli olsa da, mənafeləri üst-üstə düşəndə vahid cəbhədə birləşə bilirlər. Həm də bu "birləşmə"nin heç də tam siyasi maraqlar xatirinə yaranmadığını, burada rüşvətin, deputatları pul ilə satınalma faktorunun da rol oynadığını nəzərə alsaq, ortada bizi təəccübləndirən fakt qalmır.

Xatırladaq ki, adı milyonlarla dollar rüşvət qalmaqalında hallanan Yunanıstandan olan vitse-prezident Eva Kailinin həbsinə qədər o, Avropa Parlamentinin Avropa İttifaqı-Hayastan dostluq qrupunun üzvü olub. Həmin qrup isə Ədalət və Demokratiya uğrunda Ümumavropa Erməni Federasiyası (EAFJD) təşkilatı ilə sıx bağlıdır. Bu təşkilatın prezidenti isə ermənilərin "almaz imperatoru" adlandırdıqları milyarder Kaspar Karapetyandır. Məlumdur ki, o, 2021-ci il noyabrın 19-da Keyli avrodeputatların qrup halında imzaladıqları və "Azərbaycanın Ermənistana qarşı aqressiya törətməsi" ittihamını əks etdirən bəyanatının yayılmasının əsas təşəbbüskarı olub. 60-dan çox deputatının adı rüşvət qalmaqalında hallanan bir qurumun bizə öyüd-nəsihət verməsi haqlı olaraq ikrah doğurmaya bilməz.

İndi gələk Avropa Parlamentinin qəbul etdiyi qərəzli qətnaməyə. Göstərilir ki, guya Azərbaycan Hayastana hərbi təcavüz edib. Guya Laçın yolu bağlanaraq "blokada" yaradılıb. "Minsk qrupu", "status", "Dağlıq Qarabağda və ətrafında" kimi sərsəmləmələrə geniş yer verilib. Görünən budur ki, erməni lobbisinin "konyak diplomatiyası"nın təsirindən xumarlanan Avropa parlamentariləri nəinki ədalət hissini, hətta ağıllarını belə itiriblər. Coğrafiyanı bilməmək bir yana, qərəz, təəssübkeşlik hissi, kor-koranə sifarişləri yerinə yetirmək düşüncəsizliyi o yerə çatıb ki, hətta olub keçənləri də görməzdən gəlirlər. Elə zənn edirlər ki, Avropa Parlamenti qətnamə qəbul etdi və hər şey bitdi. Xeyr, cənab parlamentarilər! Əvvəla bilməlisiniz ki, sizlərin sifarişlə, maddi maraqlarınız naminə qəbul etdiyiniz ədalətsiz qərarlar bizim üçün bir kağız parçasıdır. Qətnamə qəbul edərkən bilməliydiniz ki, münaqişəni başlayan, Azərbaycana qarşı haqsız ərazi iddiası edən, 30 ilə yaxın bir zaman içərisində Azərbaycan torpaqlarını işğalda saxlayan, ərazilərimizdə hər cür vəhşiliklər törədən Hayastandır. Bu, azmış kimi, yüz minlərlə insanı öz doğma torpaqlarından didərgin salıb işğal etdikləri əraziləri tamamilə dağıdaraq viran qoyan, xarabazara çevirən yenə də Hayastandır. Erməni hərbi qüvvələri və hətta mülki vətəndaşlar hərbi təcavüz zamanı silahsız mülki vətəndaşlarımıza insanlığa yaraşmayan işgəncə verməklə kütləvi surətdə həyatlarına son qoyublar. Sual oluna bilər ki, Hayastanın işğal altında saxladığı, yüz minlərlə azərbaycanlının etnik təmizləməyə məruz qaldığı, Azərbaycanın şəhər və kəndlərinin müntəzəm şəkildə Yer üzündən silindiyi və sərvətlərinin talan edildiyi dövrdə Avropa Parlamenti niyə susurdu? Min illərin yadigarı olan mədəni irsimiz, tarixi abidələrimiz dağıdılanda, müqəddəs inanc yerlərimiz təhqir olunanda Avropa Parlamenti hara baxırdı? Yaxşı olardı ki, bizə "öyüd, nəsihət" vermək yolunu tutan Avropa Parlamenti Beynəlxalq Qızıl Xaç Təşkilatının rəsmi saytına baxıb Birinci Qarabağ savaşında itkin düşən və ya girov götürülən, bu günə kimi taleyi bəlli olmayan 4500-ə yaxın azərbaycanlının, o cümlədən uşaqların, ahılların, hərbçilərin sonrakı taleyi haqqında Hayastandan cavab istəyəydi. Bununla bağlı "hüququ müdafiə edən" beynəlxalq təşkilatlar, eləcə də Avropa Parlamenti hələ də susmaqda davam edir. Bu susqunluğun səbəbi nədir? Ədaləti, insan haqqını erməni konyakına, Kaspar Karapetyanın göz qamaşdıran brilyantlarına qurban verib, çirkli pulların altına sərilənlərə xatırladaq ki, 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərdə, Daşaltıda, Edillidə, Fərruxda, Başlıbeldə, Ballıqayada erməni vəhşiliklərini sübut edən azərbaycanlıların kütləvi dəfn edildikləri məzarlıqlar aşkar edilmişdir. Hətta erməni vandalizminin qurbanı olan 116 soydaşımızın sümüklərinin qalıqlarını Hayastan tərəfi Azərbaycana özləri təhvil verib.

İkincisi, Hayastana da, onlara himayədarlıq edənlərə də yaxşı məlumdur ki, Laçın yolu bağlı deyil. Burada heç bir blokadadan, humanitar böhrandan söhbət gedə bilməz. Laçın yolunun bağlı olması haqqında yayılan məlumatlar ermənilərin növbəti fitnəkarlığıdır. Bunu oraya səfər edən çoxsaylı jurnalistlər, beynəlxalq təşkilatların təmsilçiləri də təsdiq edə bilərlər.

Müharibədə acınacaqlı məğlubiyyətə uğrayan düşmən taktikanı dəyişərək siyasi cəhətdən yeni plan hazırlayıb total şəkildə "hücum"a keçib desək, səhv etmərik. İşğalçı ölkənin siyasi dairələri anlayırlar ki, Azərbaycan Hayastanı Beynəlxalq Ədalət Məhkəməsinə verib, indiyə kimi torpaqlarımızda törətdiyi hüquqa və insanlığa zidd hərəkətlərinə görə maddi təzminat alacaq. Bu məqsədlə düşmən ölkə çirkin xislətini işə salaraq plan hazırlayıb. Fransa və bəzi maraqlı dövlətlər erməni faktorundan istifadə edərək yaranmış vəziyyətdən istifadə edib, öz məkrli niyyətlərini həyata keçirməyə çalışırlar.

Başqa bir məqam isə ondan ibarətdir ki, Fransanın təşəbbüsü və Avropa İttifaqının xarici işlər nazirlərinin qərarı ilə Hayastan ərazisində Azərbaycanın razılığı olmadan "mülki missiya" yerləşdirilib. Məlumdur ki, "mülki missiya" adlandırılan "qonaqların" yarısı silahlı jandarmlardır. Fransanın təşəbbüsü və təkidi ilə ora yerləşdirilmiş missiyanın uzaqgedişli məqsədi məlumdur. Aydındır ki, missiya sərhədlərdə monitorinq aparıb, vaxtaşırı Avropa İttifaqına hesabatlar təqdim edir. Nəzərə alaq ki, son zamanlar atəşkəs adətən Hayastan-Azərbaycan sərhədində pozulur, təxribatlar daha çox Qarabağda yox, Hayastanla sərhədlərdə baş verir. Bunun da məqsədli olduğunu anlamaq o qədər də çətin deyil. Məqsəd düşünülmüş şəkildə "mülki missiya"ya "fakt" vermək üçün təşkil edilir ki, hesabatda Azərbaycanın "işğalçılıq niyyətini sübut edən faktlar" olsun. Düşmən ölkə bununla da nəyin bahasına olursa-olsun, Beynəlxalq Ədalət Məhkəməsindən maraqlarına qismən də olsa uyğun qərar əldə etmək niyyətindədir. Orada hesab edirlər ki, bununla Azərbaycanın işğalçı Hayastanın siyasi, hüquqi və maddi məsuliyyəti ilə bağlı hazırladığı geniş təzminat iddiasını əvvəlcədən neytrallaşdıra biləcəklər. Amma bu, mümkün deyil.

Sual oluna bilər ki, Avropa İttifaqı, Avropa Parlamentinin bunları etməkdə, belə çirkin kampaniyaya qoşulmaqda məqsədi nədir? Bütün bunlar niyə edilir? Hayastan bu "siyasi nüfuzu" nəyin hesabına qazanıb? Cavab çox sadədir. Hayastan həmişə kimlərinsə əlində oyuncaq, istifadə vasitəsi olub. Ermənilərin düşdüyü vəziyyətdə Fransa və digər maraqlı güclər bu mənfurların xarakterindən bəhrələnərək çox ustalıqla istifadə edirlər. Bir məqsəd də Qərblə müharibə vəziyyətində olan Rusiyanı tamamilə Cənubi Qafqazdan sıxışdırıb çıxarmaqdır. Beləliklə, adı rüşvətdə, korrupsiyada daim hallanan, sifarişli qətnamələr qəbul edib ölkəmizə qarşı həmişə qərəzli mövqeyi ilə fərqlənən, erməni lobbisinin əsirinə çevrilib şərəflərini erməni konyakına satan Avropa Parlamentinin bəzi deputatlarından bir alət kimi istifadə edilməsi bizi təəccübləndirə, haqq işimizdən döndərə bilməz. Haylar gec-tez öz oyunlarının qurbanına çevriləcəklər.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.-2023.-17 mart.-S.9.

azerbaijan-news.az